AZƏRBAYCAN

23 avqust 2024-cü il

# Naxçıvanda "YAŞAT" Fondunun "Yay düşərgəsi"nin açılış mərasimi keçirilib





Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - "YAŞAT" Fondunun təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində Azərbaycan və Türkiyədən olan şəhid övladları üçün "Yay düşərgəsi"nin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov və digər dövlət, hökumət rəsmiləri, media nümayəndələri iştirak ediblər.